Əziz tələbələr,

Azərbaycan universitetlərinin I, II və III kurs tələbələri üçün ABŞ Universitetlərində bir semestrlik **ÖDƏNİŞSİZ** təhsil almaq imkanı – **Qlobal Tələbə Mübadiləsi Proqramına (UGRAD)** ərizə qəbulu başlayıb. Proqram üçün son ərizə qəbulu tarixi **28 fevral**, saat 17:00-a kimidir.

Proqram IREX təşkilatı tərəfindən həyata keçirilir, ABŞ Dövlət Departamenti tərəfindən maliyələşdirilir və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən dəstəklənir.

Bütün iştirakçılar:

1) Bir akademik semestr ərzində dərslərdə iştirak edəcəklər

2) Ən azı 20 saat vaxtlarını yaşadıqları şəhərin icma işlərinə sərf efəcəklər

3) Təcrübə keçəcəklər

Proqramla bağlı aşağıda qeyd olunan bütün xərclər ödənilir:

Vizanın alınması (J1)

Yaşadığınız şəhərdən ABŞ-da təhsil alacağınız universitetə və geriyə yol xərcləri

Tibbi və bədbəxt hadisələrdən sığorta

Aylıq təqaüd və təhsil xərcləri

Gözlənilməz kiçik xərclər

ABŞ-da yaşayış

Dərs ədəbiyyatının alınması üçün məhdud vəsait

Məzunlar arasında əməkdaşlıq və treninq təşkil etmə imkanları

Proqram haqqında daha ətraflı məlumatı aşağıdakı keçiddən (ingilis dilində) əldə edə bilərsiniz.

Əlavə suallarınız varsa, education-az@irex.org ünvanina yaza bilərsiniz və ya 4973902/03 nömrələrinə zəng vura bilərsiniz.

FB: https://www.facebook.com/IREXAzerbaijan

http://irex.az/now-accepting-applications-for-global-ugrad-program-2014/